# Məşhurların fikirləri

Sağlığında

Vəfatından sonra

## Sağlığında

Mən, Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram.

***Nikolay BAYBAKOV,***

***Rusiya - Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

* * *

Cənab Əliyev! Siz canlı əfsanəsiniz.

***Jak DÜRE,***

***fransız sovetoloqu***

* * *

Cənab Əliyev! 1982-ci ildə Sizin Kremlə gəlişinizlə Sovetlər Birliyinin Yaxın Şərqdəki siyasəti kökündən dəyişdi, ona yeni impuls verildi.

***Alan d'ESKAR,***

***fransız politoloqu***

* * *

Siz bütün dünyanın etiraf etdiyi görkəmli lidersiniz.

***Federiko MAYOR,***

***YUNESKO-nun Baş direktoru***

* * *

Türk milləti tarix boyunca zaman-zaman böyük sərkərdələrini meydana çıxarmışdır. Heydər Əlirzaoğlu da o böyük sərkərdələrdən biridir. Mustafa Kamal Paşa Türkiyəni düşdüyü girdabdan çıxardığı kimi Heydər Paşa da Azərbaycanı bu bəladan qurtaracaqdır.

***Doğan GÜRƏŞ,***

***Türk Silahlı Qüvvələrinin Baş Qərargahının rəisi,***

***ordu generalı***

* * *

Cümhur başqanı Heydər Əlirzaoğluna Azərbaycanın sabahına inandığım qədər inanıram. Sizin uğurlarınız bizim uğurlarımızdır.

Azərbaycanın prezidenti kimi Siz ölkəniz üçün, bölgəniz və dünya üçün çox böyük işlər görürsünüz. Siz Azərbaycana azadlıq, müstəqillik qazandırmısınız. Siz müstəqil Azərbaycan Respublikasını dünyaya tanıtdırdınız. Azərbaycan xalqını yüksəklərə qaldırdınız. İnanıram ki, Sizin müdrik siyasətiniz nəticəsində müstəqil Azərbaycan Respublikası daim inkişaf edəcəkdir. ...Sizin «Bir millət iki dövlət» kəlamınız indi bütün Türkiyədə məşhurdur. Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığınızın hazırda çox böyük uğurla davam etməsi məhz Sizin diqqət və qayğınız sayəsində mümkün olmuşdur.

*Hikmət ÇETİN,*

*Türkiyənin xarici işlər naziri*

* * *

Xoşbəxtsiniz ki, Heydər bəyə inanırsınız. Heydər bəyi çox sevirəm və onun böyüklüyünə inanıram.

*Alparslan TÜRKEŞ,*

*Milliyyətçi Hərəkat Partiyasının lideri*

* * *

Heydər Əlirzaoğlu cümhur başqanı seçildikdən sonra əldə edilən uğurlar göz önündədir. Bacarıqlı lideri olmayan bir millət heç nəyə qadir deyil. Heydər Əlirzaoğlu Atatürk qədər qüdrətli bir türkdür. Atatürk isə yüz ildə bir yetişən böyük şəxsiyyətdir. Heydər Əlirzaoğlunun liderliyi ilə Azərbaycan dərddən qurtaracaq.

*Bülənd ECEVİT,*

*Türkiyənin baş naziri*

* * *

Heydər Əlirzaoğlu dünya şöhrətli bir liderdir. O, Atatürkün mənəvi övladıdır.

*Dəniz BAYKAL,*

*Cümhuriyyət Xalq Partiyasının sədri*

* * *

Heydər bəyi çox sevirik. Bir zamanlar babam İsmət Paşaya «Həyatdakı Atatürk» deyirdilər. Heydər Əlirzaoğlu da həyatdakı Atatürkdür.

*Ərdal İNÖNÜ,*

*Türkiyə baş nazirinin müavini*

* * *

Cənab Heydər Əliyev prezident seçilərkən Qərbdə ona şübhə ilə yanaşdıq: zənn edirdik ki, o, Azərbaycanda kommunizm qaydalarını bərpa edəcək. Lakin tez bir zamanda bizə aydın oldu ki, yanılmışıq. Azərbaycan dövlətinin bu mürəkkəb dövründə ona yalnız belə zəngin təcrübəli və müdrik başçı lazımdır. İndi Azərbaycan İkinci dünya müharibəsindən çıxmış Almaniyanı, prezident Heydər Əliyev isə kansler Adenaueri xatırladır. Əgər daxili və xarici qüvvələr prezident Heydər Əliyevə mane olmasalar, işləməyə imkan versələr, Azərbaycanın indiki inkişaf mərhələsi onun tarixinə intibah dövrünün başlanğıcı kimi daxil ola bilər - ölkəniz müharibədən şərəfli sülhə nail olaraq çıxar. Sabitlik, sosial-iqtisadi rifah, beynəlxalq aləmdə hörmət və nüfuzun artması - bunlar Azərbaycan üçün gerçəkliyə çevrilə bilər.

*V.VİMMER,*

*Almaniya Parlamentinin üzvü*

* * *

Azərbaycanı çox çətin şəraitdə idarə etməyə və hamımızın yaxşı bildiyimiz, mənim də yaxından bildiyim məhrumiyyətlərə baxmayaraq, Azərbaycan xalqının əhvali-ruhiyyəsini yüksək tutmağa və Azərbaycanın ən qısa bir zamanda bütün qurumları ilə öz milli dövlətini yaratmağa nail olması və onun Qafqazın ən zəngin dövlətlərindən birinə çevrilməsi, dünyaya bu nəzərlə baxa bilməsi üçün göstərdiyi səylərə görə əziz qardaşım Heydər Əliyevi alqışlayıram.

Hörmətli Heydər Əliyev şübhəsiz ki, XX əsrdə iz qoymuş şəxsiyyətlər arasında haqlı yerini uzun illər bundan öncə almış dövlət və siyasət adamıdır. Əsasən XX əsrin iki super gücündən biri olan Sovetlər Birliyinin tarixini yazarkən hörmətli Heydər Əliyevdən bəhs etmədən ötüşmək mümkün deyildir.

Hörmətli Heydər Əliyev Sovetlər Birliyi dövründə Azərbaycanın çiçəklənən respublikaya çevrilməsi üçün uzun illər boyunca böyük fədakarlıqla çalışmış, ölkəsinin haqq və nüfuzunu qorumağa səylər göstərmişdir.

***Süleyman DƏMİRƏL,***

***Türkiyənin 9-cu prezidenti***

* * *

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin simasında özümə yaxın dost və sirdaş tapmağımdan məmnunam. Mən Heydər Əliyevə böyük hörmət və ehtiram bəsləyirəm, onun siyasi fəaliyyətini və məharətini, uzaqgörənliyini yüksək qiymətləndirirəm.

***Butros QALİ,***

***BMT-nin Baş katibi***

* * *

Heydər Əliyev dünyanın yeni nüfuz dairələrinə bölünməsi prosesinin mərkəzində dayanan şəxsiyyətlərdəndir. O, dünya siyasətində olduqca nüfuzlu siyasi xadimdir. ATƏM-ə üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısının 6 dekabr 1994-cü ildə keçirilən yekun iclası Heydər Əliyevin qələbəsi, onun ideyasının təntənəsi ilə başa çatdı.

***Yanq HOVARİ,***

***Macarıstan diplomatı***

* * *

Sizin kimi milli-azadlıq uğrunda mübarizlərin gərgin əməyi sayəsində qurbanlar bahasına da olsa, müstəqilliyinizi möhkəmləndirirsiniz. Bizə yaxşı məlumdur ki, bütün məsələlərdə, eləcə də neft müqaviləsində Siz Azərbaycanın mənafeyi naminə çox qəti mövqedə durursunuz.

***Uilyam UAYT,***

***ABŞ energetika nazirinin birinci müavini***

* * *

Cənab prezident! Siz mənə çox lazımlı adamsınız, mən sizi özümə müəllim hesab edirəm. Siz hər altı aydan bir mənə dərs verirsiniz, mənim bu dərsə indi də ehtiyacım var. Bu, Qafqazda, regionunuzda, bütövlükdə dünyada gedən proseslərə sizin münasibətinizi öyrənməkdən ibarətdir.

***Duqlas HÖRD,***

***Böyük Britaniyanın Xarici İşlər və Millətlər Birliyi üzrə dövlət katibi***

* * *

Heydər Əliyevə dahi şəxsiyyət kimi böyük rəğbət bəsləyirəm.

***Hüseyn ibn TƏLAL,***

***İordaniyanın kralı***

* * *

İndiki tarixi məqamda Sizin suveren, azad Azərbaycan Respublikasının bəxti onda gətirmişdir ki, bu gün ona Heydər Əliyev kimi təcrübəli, dünyada tanınmış siyasətçi rəhbərlik edir. Mən Rusiyada elə bir adam tanımıram ki, onun ünvanına mənfi söz demiş olsun. Məhz onun sayəsində hadisələr bu məcraya, problemlərimizin sülh yolu ilə həlli məcrasına düşmüşdür.

Bu gün bizimlə birlikdə işləyən belə təcrübəli rəhbər etimada və hər cür hörmətə layiqdir.

***Vladimir ŞUMEYKO,***

***Rusiya Federal Məclisi Federasiya Şurasının sədri***

* * *

Belə bir hal heyranlıq doğurur ki, hətta ən çətin sınaqlar zamanı da Siz xalqın birliyini qoruyub saxlaya bildiniz. Bunsuz hər hansı dövlətin varlığı ağlasığmazdır.

Cənab Heydər Əliyev, Sizə həqiqətən qibtə edirəm. Bunu doğrudan da çox ciddi deyirəm. Çünki burada qısamüddətli dövlət səfərində olarkən başa düşdüm ki, Heydər Əliyev Azərbaycan xalqının hamı tərəfindən qəbul edilən lideridir.

***Leonid KUÇMA,***

***Ukraynanın prezidenti***

* * *

Bu regionda baş verən hadisələrdə Azərbaycan prezidenti Heydər Əliyevin fəaliyyətinin mənası və əhəmiyyəti böyükdür. Məhz buna görə də Heydər Əliyevlə görüşümə böyük əhəmiyyət verirəm.

Sovet İttifaqı dövründə Heydər Əliyevlə görüşməmişdim, amma, əlbəttə, onun haqqında eşitmişdim. Mən, xüsusilə, Ağ evdə çalışarkən sovet sistemi ilə maraqlanırdım və sovet liderləri ilə əlaqələrim var idi. Bilirdim ki, Heydər Əliyev aparıcı rəhbərlərdən biridir və onun adı hansısa məqamda hətta partiyanın baş katibi vəzifəsi üçün hallandırılırdı. Mən bilirdim ki, onun geniş siyasi təcrübəsi var.

Heydər Əliyevin şəxsi cəhətlərinə gəldikdə isə, deyim ki, mənim həyat yoldaşımın ondan xoşu gəlir. Bu, mənim üçün çox əhəmiyyətli barometrdir. Deyəsən, onun da mənim həyat yoldaşıma münasibəti yaxşıdır. Buna etirazım yoxdur, çünki bunu sağlam bir əlamət hesab edirəm. Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir.

Heydər Əliyev Azərbaycanın beynəlxalq miqyasda mövqeyinin möhkəmləndirilməsi üçün, şübhəsiz, çox müsbət işlər görmüşdür. Siyasi sabitliyin yaradılması sahəsində gördüyü işin nə qədər səmərəli olduğunu isə, hazırda heç kim qiymətləndirə bilməz. Azərbaycanın siyasi sistemi ilkin inkişaf mərhələsində olduğundan, bu məsələyə qəti cavab vermək mümkün deyildir, bunu gələcək göstərəcəkdir.

***Zbiqnev BJEZİNSKİ***

***ABŞ prezidentinin müşaviri, məşhur politoloq və siyasi xadim***

* * *

Məhz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün dünyaya sübut etdi ki, o, müstəqil yaşamaq istəyir və öz ərazisinin, zəngin təbii sərvətlərinin sahibi olmağa, bütün sərvətləri barə- sində müstəqil qərar qəbul etməyə qadirdir.

***Qreq LAFLİN,***

***ABŞ-ın tanınmış siyasi xadimi***

* * *

Heydər Əliyevin boru kəmərlərinin marşrutu barədə qəbul etdiyi qərar təkcə Azərbaycan üçün deyil, həm də regionun bir çox digər dövlətlərinin müstəqilliyinin qorunması üçün böyük əhəmiyyət daşıyır. Buna görə, mən Azərbaycan prezidentinə minnətdarlığımı bildirirəm.

***Çarlz KÖRTİS,***

***ABŞ energetika nazirinin müavini***

* * *

Biz Heydər Əliyevi Azərbaycanda demokratiyanın təminatçısı hesab edirik.

***QUŞEYDU***

***Fransanın siyasi xadimi***

* * *

Azərbaycan prezidenti Heydər Əliyevin tərcümeyi-halına yaxşı bələdəm və Sizi 1975-ci ildən tanıyıram. Sizin rəhbərliyiniz altında Azərbaycan dövlətinin son illər əldə etdiyi nailiyyətlərin, Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına qovuşdurmaq uğrunda aparılan ardıcıl və səmərəli siyasətin yaxın gələcəkdə mütləq bəhrə verəcəyinə əminəm.

***Yord BETNOL,***

***Böyük Britaniyanın məşhur siyasi xadimi***

* * *

Postsovet məkanındakı heç də bütün dövlətlərdə Azərbaycan prezidenti kimi belə müdrik, təcrübəli adamlar dərhal rəhbərliyə gəlməmişlər. Mənə elə gəlir ki, bu, təsadüfi deyildir. Ona görə təsadüfi deyil ki, bütövlükdə postsovet məkanında baş verən proseslər nə qədər mürəkkəb olsa da, dövlətlərimizin xalqlarının tələbləri bu münasibətlərdə müsbət nəticə əldə olunmasına yönəldilmişdir. Təbii ki, onlar bu problemləri həll etməyə qadir insanları irəli çəkirlər.

... Rusiya ilə Azərbaycan arasında ənənəvi münasibətlər var, biz bu barədə çox danışmışıq və yerli rəhbərliyin, prezident Heydər Əliyevin xidmətlərini lazımınca qiymətləndirmək gərəkdir.

***Vladimir PUTİN,***

***Rusiya Federasiyasının prezidenti***

* * *

Azərbaycanın Avropa ölkələri ailəsində özünəlayiq yer tutmasını, böyük təcrübəyə malik, şöhrətli dövlət xadimi Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin gözəl bəhrəsi kimi dəyərləndirirəm. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi, bu ölkədə insan haqlarının qorunması, demokratiyanın möhkəmlənməsi, daim inkişafda olması məhz Heydər Əliyevin siyasətinin nəticəsidir.

... Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir.

... Prezident Heydər Əliyevi Parisdə qəbul etmək mənim üçün böyük sevincdir. Çoxdandır ki, bizim aramızda qarşılıqlı dostluq münasibətlərindən də artıq əlaqələr yaranmışdır. Mən prezident Heydər Əliyevə dərin hörmət bəsləyirəm.

***Jak ŞİRAK,***

***Fransa Respublikasının prezidenti***

* * *

Həyatımda Sizin kimi güclü yaddaşa malik ikinci bir şəxsiyyət görməmişəm.

Başa vurduğumuz əsrdən də əvvəl bu məmləkətdə ilk teatr olmuş, ilk qəzet çıxmışdır, ilk dəfə latın əlifbasını biz azərbaycanlılardan götürmüşük. Cümhuriyyət ideyası, cümhuriyyət, demokratiya nədir, - türk və islam dünyasında ilk dəfə bunları biz Azərbaycandan götürmüşük. İslam dünyasında ölüm hökmü ilk dəfə Sizin başçılıq etdiyiniz ölkədə ləğv edilib.

***Qədri Ecvet TEZCAN,***

***Türkiyə Respublikasının Azərbaycandakı səfiri***

* * *

Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm.

***Corc BUŞ,***

***ABŞ-ın prezidenti***

* * *

Mən həyatımda çox böyük mükafatlar almışam. Amma Sizinlə dostluğumu özüm üçün ən böyük mükafat hesab edirəm. Mənim üçün bundan yüksək mükafat ola bilməz.

Siz həm təcrübəli, həm də orijinal adamsınız. Sizin sağlığımız, varlığınız Azərbaycan üçün, hər birimiz üçün bir nemətdir.

***İhsan DOĞRAMACI,***

***Bilkənd Universiteti idarə heyətinin sədri, məşhur ictimai xadim***

* * *

Sizin bioqrafiyanıza yaxşı bələdəm. Biz cavan siyasətçilər Sizin fəaliyyətinizi daim izləyirik, Sizə rəğbətlə yanaşırıq və Sizdən çox şey öyrənirik. Azərbaycanın dövlət müstəqilliyinin qorunması yolunda qarşıya çıxan çətinliklərə necə sinə gərdiyinizdən xəbərdaram.

Polşada Sizi görkəmli dövlət xadimi və dost dövlətin lideri kimi, bir neçə il bundan əvvəl Mərkəzi və Şərqi Avropada baş vermiş böyük dəyişikliyin arxitektorlarından biri kimi tanıyır və qiymətləndirirlər. Biz Xəzər dənizi hövzəsinin strateji cəhətdən çox mühüm regionunda vəziyyətin normallaşdırılması üçün Sizin göstərdiyiniz diplomatik fəallığı xüsusi diqqətlə izləyirik.

***Aleksandr KVASNEVSKİ,***

***Polşa Respublikasının prezidenti***

* * *

Mən və bir çox gənc siyasətçilər Heydər Əliyevi ağsaqqal, patriarx sayırıq.

Biz hələ Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxuyarkən Sizin fəaliyyətinizi, çıxışlarınızı öyrənirdik.

Heydər Əliyev gənc siyasətçilər üçün əfsanədir, qurub-yaratmaq, yenidən ayağa qalxmaq rəmzidir.

...Azərbaycanın, onun indiki prezidenti Heydər Əliyevin timsalında öyrənməli cəhətlər var.

***Kirsan İLYUMJİNOV,***

***FİDE-nin prezidenti, Rusiya Federasiyası Kalmıkiya Respublikasının prezidenti***

* * *

Dağıstanlılar Sizi yaxşı tanıyır, sevir və Sizə hörmət bəsləyir. Onlar Siz əvvəllər Azərbaycana başçılıq edərkən də, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən də Sizinlə fəxr edirdilər. Biz indi də nəinki Azərbaycanda, həm də Qafqazda sülhün və sabitliyin bərpa edilməsinə olan bütün ümidləri Sizin adınızla bağlayırıq.

***Məhəmməd MƏHƏMMƏDOV,***

***Dağıstan Respublikası Dövlət Şurasının sədri***

* * *

Zəmanəmizin görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gəldikdən sonra sabitlik bərqərar olmuş, dəfələrlə göstərilən dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alınmış və indi respublika əmin-amanlıq şəraitində yaşayır.

***Zurab JVANİYA,***

***Gürcüstan parlamentinin sədri***

* * *

Heydər Əliyev dünya qarşısında xidmətlərinə görə, beynəlxalq aləmdə tanınmış siyasət və dövlət xadimi kimi, Gürcüstanın və gürcü xalqının dostu kimi bizə əziz və doğmadır. Qəzetlərimizin «polad iradəli

Əliyev» yazdığı kimi, o, həqiqətən də polad iradəyə malik nadir şəxsiyyətdir. Məhz onun cəsarəti sayəsində Azərbaycan güclü, müstəqil, firavan bir ölkəyə çevrilməkdədir. Heydər Əliyev siyasət meydanına Azərbaycanın ağır, mürəkkəb vaxtında yenidən gəlmişdir, bir çox çətinliklərə sinə gərərək Azərbaycanı böhranlı vəziyyətdən xilas etmişdir.

***Eduard ŞEVARDNADZE,***

***Gürcüstan Respublikasının prezidenti***

* * *

Siz çox əzəmətli bir qayanı xatırladırsınız.

***Uilyam UAYT,***

***ABŞ energetika nazirinin birinci müavini***

* * *

Biz Sizin şəxsinizdə özümüzə dost və lider tapmışıq. Siz əsrlərdən bəri böyük tarixə malik olan bölgədə aparıcı mövqe tutursunuz, keçmiş Sovetlər Birliyində yüksək vəzifələrdə olmusunuz və buna görə də biz Sizin kimi bir xadimlə daim fikir mübadiləsi aparmaq istərdik.

***Fərrux Əhməd XAN LEQARİ,***

***Pakistan İslam Respublikasının prezidenti***

* * *

... Azərbaycanın prezidentinə bizim dərin hörmətimiz var, onun siyasi karyerasını diqqətlə izləyirik və Azərbaycanda demokratik dəyişikliklərin aparılması, ölkənin bazar iqtisadiyyatına doğru addımlamasından ötrü göstərdiyi səyləri dəstəkləyirik. Bu proseslər - həm demokratik cəmiyyətin qurulması, həm də azad bazar münasibətlərinin yaradılması asan iş deyildir. Bundan ötrü vaxt gərəkdir. Biz bu işdə Azərbaycan prezidentini dəstəkləyirik və əminəm ki, Azərbaycan xalqı onun müdrik rəhbərliyi altında bu dəyişikliklərin bəhrəsini görəcəkdir.

***Bənəzir BHÜTTO,***

***Pakistan İslam Respublikasının baş naziri***

* * *

Mən sizə çox mühüm bir məsələni də söyləmək istəyirəm. O da mənim Azərbaycan prezidentinə olan çox yüksək hörmətimdir. Mən Azərbaycan prezidentinin qətiyyətini, məğrurluğunu çox yüksək qiymətləndirirəm. O, ölkəsinin müstəqilliyini, suverenliyini qorumaq sahəsində çox böyük qətiyyət göstərib.

***Xavyer SOLANA,***

***NATO-nun Baş katibi, Avropa İttifaqının ali təmsilçisi***

* * *

Heydər Əliyev müdrik insandır.

Sizin əla, hətta deyərdim ki, ensiklopedik yaddaşınız var. Qədim tarixdən, fəlsəfə, siyasət, ədəbiyyat və dilin müxtəlif istiqamətlərindən bu qədər adı, özü də bu qədər müasir adı yadda saxlamaq görünməmiş işdir.

Heydər Əliyeviç, inanın mənə, bu məsələdə mən sizinlə yarışa bilmərəm və Sizə tay ola bilmərəm. Təkcə onu deyim ki, yalnız Sizə deyil, Azərbaycan xalqına da həsəd aparıram, çünki bu gün onun belə bir lideri var və o, öz yaddaşında hər şeyi saxlayır, ən başlıcası, onun dəqiq, aydın, ardıcıl siyasəti, mövqeyi var.

... Milyonlarla insanın taleyi həll olunduğu bir dövrdə tarix bütün dünyada tanınmış bəzi rəhbərləri geri qaytardı. Heydər Əliyev kimin xoşuna gəlsə də, gəlməsə də, bu gün dünya onu tanıyır və o, Azərbaycanın nüfuzunu bütün dünyada yüksəldən qanuni liderdir.

... Heydər Əliyev Sovetlər İttifaqı dağıldıqdan sonra təkcə Azərbaycanda deyil, digər regionlarda da hansı proseslərin baş verdiyini və bunların nəyə gətirib çıxardığını çox gözəl bilir. Zənnimcə, bu, çox mühümdür.

***İslam KƏRİMOV,***

***Özbəkistan Respublikasının prezidenti***

* * *

Biz Heydər Əliyevlə çoxdan tanışıq, bir-birimizi on illərdir tanıyırıq. Heydər Əliyev Kremldə işləyərkən mən, adətən, onun yanına dəstək almaq üçün gedirdim. Heydər Əliyev Moskvada xəstəxanaya düşərkən mən ona birincilər sırasında baş çəkdim. Heydər Əliyevə ağır itki üz verərkən - o, həyat yoldaşını dəfn edəndə mən onunla idim.

İndi başqa zamandır. Hesab edirəm ki, Azərbaycan xalqı Heydər Əliyevi dövlətə başçılıq etməyə çağırmaqla düzgün hərəkət etmişdir.

***Nursultan NAZARBAYEV,***

***Qazaxıstan Respublikasının prezidenti***

* * *

Mən Heydər Əliyevi bir insan, bir rəhbər kimi, deyərdim ki, iki keyfiyyətdə tanıyıram. Əlbəttə, bir adam dövlətin, xalqın tarixini bir gündə, bir dövr ərzində yarada bilməz. Bunun üçün xalqımızın bir çox nəsilləri, bir çox rəhbərləri böyük əziyyət çəkmişlər. Lakin məhz Heydər Əliyevin o illərdə respublikanı yüksəltməsi və xalqın nüfuzunu qaldırması, o sistem şəraitində gördüyü işlər bizim hamımızda, eləcə də məndə heyranlıq hissləri, bəlkə də bir qədər qibtə hissi oyatmışdır.

Biz tarixi bir məqamın şahidləriyik. Çünki hesab edirik ki, insanı hələ sağlığında ikən layiqincə qiymətləndirmək, onun qədrini bilmək qeyri-mümkündür. Axı bir ara iş elə gətirdi ki, Azərbaycan xalqı müəyyən dövrdə Əliyevi, təəssüflər olsun ki, itirdi. Bu itkinin qiymətinin nə demək olduğunu hamı hiss etdi. Mən qəti əminəm ki, dövlət rəhbəri üçün bütün lazımi keyfiyyətlərə malik belə çox zəngin təcrübəli insan məhz həmin dövrdə - bütün cəmiyyətin yenidən qurulduğu bir dövrdə son dərəcə gərək idi.

***Mintimer ŞAYMİYEV,***

***Tatarıstan Respublikasının prezidenti***

* * *

Sizə çox sağ olun deyirəm ki, olduqca böyük bir iş görmüsünüz - xalqı öz ölkəsinin sahibi etmisiniz, bütövlükdə ölkədə böyük dəyişikliklər edib, onun nüfuzunu yüksəltmisiniz. Bunun misli yoxdur. Siz böyük insansınız. Elə bir insan ki, müharibəni dayandırmışdır, öz xalqını, bu torpaqda sülhü, əmin-amanlığı qoruyub saxlayır.

***Mstislav ROSTROPOVİÇ,***

***məşhur musiqiçi, görkəmli ictimai xadim***

* * *

Sizin tutduğunuz prinsipial mövqe Amerikada, onun dövlət strukturları da, rəsmi dairələrində, eləcə də ictimaiyyətdə böyük ehtiram və rəğbət hissi yaratmış, Azərbaycana olan marağı və diqqəti daha da artırmışdır.

...Amerika Azərbaycanda qüdrətli, müstəqil dövlət qurulması istiqamətində edilən səyləri güclü surətdə dəstəkləyir. Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan müstəqilliyin- dən irəli gələn vəzifələrin həllində əhəmiyyətli tərəqqi əldə edibdir. Amerika bu tərəqqinin da- vam etməsini arzulayır.

***Bill KLİNTON,***

***ABŞ-ın prezidenti***

* * *

Cənab Heydər Əliyev Azərbaycanın dövlət başçısı kimi uzaqgörənlik, müdriklik göstərərək Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün çox böyük səylər qoymuşdur. Sülhün əldə olunması üçün gördüyü gərgin işlərlə bərabər ölkənin iqtisadiyyatının bərpa olunmasına və canlandırılmasına da böyük həvəslə başlayan prezident Heydər Əliyev Azərbaycanın qapılarmı dünya birliyinin üzünə açmış və xarici şirkətlərin sərmayə qoymaları üçün hər cür şərait yaratmışdır.

Prezident Heydər Əliyev Azərbaycanın demokratik inkişafını təmin etmək məqsədilə demokratik təsisatların yaradılması sahəsində göstərdiyi xidmətləri xüsusi qeyd etmək istəyirəm. Cənab Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və liderliyi artıq öz bəhrələrini verməkdədir.

***Riçard ARMİTAÇ,***

***ABŞ dövlət katibinin birinci müavini***

* * *

Prezident Heydər Əliyevin müdrik xarici siyasəti nəticəsində Azərbaycan dünyanın sivilizasiyalı, inkişaf etmiş dövlətləri ilə bir sırada durmuşdur.

***Saparmurad NİYAZOV,***

***Türkmənistan Respublikasının prezidenti***

* * *

Rusiyada Sizi beynəlxalq aləmdə dərin hörmət və şöhrət qazanmış, Rusiya - Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsinə və inkişafına şəxsən böyük töhfə vermiş müdrik, nüfuzlu dövlət xadimi kimi tanıyırlar.

Şəxsən mənim üçün böyük əhəmiyyəti vardır ki, mən Sizi Rusiyanın daimi və sadiq dostu, Rusiya ilə Azərbaycan arasında dostluq əlaqələrinin möhkəmlənməsinin əqidəli tərəfdarı kimi çoxdan və yaxıdan tanıyıram.

***Boris YELTSİN,***

***Rusiya Federasiyasının birinci prezidenti***

* * *

Biz inamla deyə bilərik ki, Almaniya ilə Azərbaycan arasında, xüsusən iqtisadi sahədə olan dostluq münasibətləri son illərdə aşkar inkişaf etmiş və dərinləşmişdir. Bu işdə Sizin səylərinizin böyük rolu olmuşdur. Eyni zamanda, Siz ölkənizə çətin bir şəraitdə rəhbərlik edərək onu azadlıq və siyasi-iqtisadi inkişaf yolu ilə aparırsınız. Bu, dünya dövlətləri arasında ölkənizə etimadın artmasına səbəb olmuşdur.

***Helmut KOL,***

***Almaniya Federativ Respublikasının federal kansleri***

* * *

Azərbaycan dövlətinin başçısı kimi yorulmadan çəkdiyiniz zəhmət sayəsində ölkəniz böyük müvəffəqiyyətlər qazanmışdır. Azərbaycan Dövlətlər Birliyinin tanınmış üzvüdür və Sizin prezidentliyiniz dövründə onun iqtisadi və siyasi sanbalı xeyli artmışdır.

***Roman HERSOQ,***

***AFR-ın ş prezidenti***

* * *

Öz yorulmaz və inadlı səylərinizlə Siz Azərbaycanı dövlətlərin beynəlxalq birliyinin tanınmış və nüfuzlu üzvlərindən birinə çevirmisiniz. Sizin rəhbərliyiniz dövründə Azərbaycanın keçdiyi fərəhləndirici inkişaf yoluna, xüsusən iqtisadi sahədə inkişafa baxıb fəxr edə bilərsiniz.

***Klaus KİNKEL,***

***Almaniya Federativ Respublikasının xarici işlər naziri***

* * *

Sizinlə hər bir görüş bizim üçün, Rusiya nümayəndələri üçün böyük hadisədir. Mən bunu səmimiyyətlə, ürəkdən deyirəm. Biz ancaq təəccüblənə bilərik ki, Siz daxili problemlər sahəsində fəal, intensiv işi coşqun xarici siyasət fəaliyyəti ilə uyğunlaşdırmaq üçün bu qədər qüvvəni haradan alırsınız. Sizin istər siyasi, istər iqtisadi sahədə nail olduğunuz nəticələri, hətta ən nikbin ovqatlı politoloqlar da ağlına gətirə bilməzdilər.

***Boris PASTUXOV,***

***Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini***

* * *

Sizin liderliyiniz nəticəsində ölkənizdə qısa müddətdə əldə olunmuş nailiyyətlər Azərbaycanı həqiqətən diqqət mərkəzinə gətirmişdir. Cəmi bir neçə il əvvəl Azərbaycan haqqında bunları demək olmazdı. Amma Sizin liderliyiniz sayəsində ölkənizdə birlik, sülh, sabitlik və daim artmaqda olan tərəqqi əldə olunubdur. Bu, həqiqətən böyük müsbət dəyişikliklərdir.

***Riçard LUÇAR,***

***ABŞ-ın tanınmış siyasi xadimi***

* * *

Azərbaycan prezidentinin Qafqazda atdığı addımları Birləşmiş Ştatlarda diqqətlə izləyirlər. Azərbaycan çox mürəkkəb coğrafi-siyasi məkanda yerləşən dövlətdir. ABŞ və Qərb ölkələri ilə əlaqələri inkişaf etdirməyi, bazar iqtisadiyyatının və demokratiyanın bərqərar olması üçün əzmlə çalışmağı qarşısına məqsəd qoyan prezident Heydər Əliyevin fəaliyyəti təqdirəlayiqdir. Heydər Əliyev müstəqilliyi qoruyub saxlamaq uğrunda əzmlə, qətiyyətlə mübarizə aparır.

Mənim üçün xüsusilə böyük məmnunluqdur ki, bizim strateji, siyasi əhəmiyyət verdiyimiz bir ölkə Sizin kimi dünya şöhrətli şəxsiyyət tərəfindən idarə olunur.

***Henri KİSSİNCER,***

***ABŞ-ın dövlət katibi, məşhur ictimai-siyasi xadim***

* * *

Heydər Əliyev, mən Sizə həmişə böyük hörmətlə yanaşmışam və yanaşacağam. Çünki bir şəxsiyyət kimi, dövlət xadimi kimi bütün keçmiş Sovet İttifaqı üçün, Azərbaycan xalqı üçün, Yer üzündəki bütün türk xalqları üçün qədir-qiymətinizi bilirəm.

...Çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə bəlkə də bir dəfə verilir və onu əldən buraxmaq olmaz. Ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında azad və məşhur insanlar olsunlar. Heydər Əliyev, Sizin kimi rəhbərlərin xidməti məhz bundan ibarətdir.

SSRİ-nin «yenidənqurma eşqinə düşən» rəhbərliyi peşəkarları vəzifədən uzaqlaşdıraraq, yeni dövlətlərin müqəddəratını naşıların və kütlənin öhdəsinə buraxmaqla xalqları separatçılıq, vətəndaş müharibələri və etnik təmizləmələr faciəsinə düçar etdilər. Tacikistan, Özbəkistan, Qırğızıstan, Moldaviya, Gürcüstan, Azərbaycan, Çeçenistan... Yüz minlərlə insan öldürüldü, milyonlarla adam vətənindən didərgin salındı.

Mən əminəm ki, əgər 80-ci illərin axırları 90-cı illərin əvvəllərində Heydər Əliyev Azərbaycana rəhbərliyi davam etdirsəydi, nə Ermənistan - Azərbaycan münaqişəsinə, nə də Sumqayıt hadisələrinə yol verməzdi. 1990-cı ilin yanvarında general Varennikovun tankları Bakıya yeridilməzdi. 1992-1993-cü illər müharibəsində Qarabağ itirilməzdi.

***Oljas SÜLEYMENOV,***

***yazıçı, diplomat***

* * *

Heydər Əliyev Xəzər regionu üçün təlatümlü dövrlərdə qəti qərarlar qəbul edibdir. Beləliklə, Azərbaycan ABŞ-ın geniş səpkili maraqlarına cavab verən bir ölkədir.

Prezident Heydər Əliyev dövlət xadimi bacarığı ilə müxtəlif boru kəmərlərinin reallaşmasını həyata keçirmişdir. Şərq-Qərb dəhlizinin yaranmasında əldə etdiyimiz tərəqqidə bizə yardımçı olmuşdur. Prezident Heydər Əliyevin, mən deyərdim ki, sərt mövqeyi, Azərbaycan xalqı olmadan nə Bakı - Novorossiysk, nə də Bakı - Supsa kəmərləri mümkün olmazdı. Bakı-Ceyhan kəməri ilə bağlı işimizdə prezident Heydər Əliyevin rolu əsas olmuşdur.

***Riçard MORNİNQSTAR,***

***ABŞ prezidenti və dövlət katibinin müşaviri***

* * *

Hörmətli Heydər Əliyevlə ünsiyyət məni həm də bir çox cəhətdən zənginləşdirir. Çünki onun həyat yolu, olduqca böyük siyasi və dövlət fəaliyyəti təcrübəsi mənə də çox şey verir. Bəzən bu və ya digər problemi, necə deyərlər, sıyrılmış qılıncla həll etmək istəyirsən, müdrik bir insan olan Heydər Əliyev isə tələsməməyi məsləhət görür. Hərçənd dəqiq, sərt mövqe ona həmişə xas olan xüsusiyyətdir.

...Heydər Əliyev məhz bu mürəkkəb keçid dövrü ərzində bütün məsələlərdə ardıcıllıq nümayiş etdirmiş bir insandır. Buna görə də ona MDB liderləri hörmət bəsləyir, ondan nümunə götürürlər.

Ona heç də təkcə MDB liderləri hörmət etmirlər. Heydər Əliyev bütün dünyada məşhurdur.

...Heydər Əliyevin tarixdə rolunu və yerini birinci yerə çıxarmaq istəyirəm.

***Leonid KUÇMA,***

***Ukraynanın prezidenti***

* * *

Uca şəxsiyyətinizin tərifəlayiq liderliyi altında müstəqil, demokratik bir dövlət olan Azərbaycan bütün dünyada hörmət qazanmışdır. Gənc Azərbaycan dövlətinin tanınmasında və öz iqtisadiyyatmı dünya iqtisadiyyatı ilə sıx bağlamasında Sizin kimi böyük bir şəxsiyyətin əvəzsiz xidmətləri olmuşdur.

***Əhməd Necdət SEZƏR,***

***Türkiyə Respublikasının prezidenti***

* * *

Sizin liderliyinizlə Azərbaycanın haradan-haraya gəldiyini çox yaxşı gördüm. İnsan bir şeyi hər gün görürsə, böyük dəyişiklikləri duymur, amma on illik fasilədən sonra Azərbaycanı gördüyüm zaman heyrət içində qaldım və qəlbim təqdir duyğuları ildə doldu. Hər şey o qədər gözəl olmuşdur ki, insanların üzündən məmnuniyyət, əsgərlərin özlərinə güvənmələri, iş görmələri, Silahlı Qüvvələrin gücü - bütün bunlar hər sahədə çox böyük dəyişikliklər baş verdiyini aşkar göstərir. Bunların zati-alinizin böyük öndərliyi ilə əldə olunduğunu hər kəs bilir.

***Hilmi ÖZKÖK,***

***Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının komandanı, ordu generalı***

* * *

Siz yüksək zirvəni fəth etmisiniz. Keçmişə nəzər salsaq, Siz bu günlərdə tanıdığımız Avropanın formalaşmasında və Avroatlantika Birliyinin inkişafında həlledici rol oynamısınız. Gələcəkdə birlikdə işləyərək NATO ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsini davam edəcəyik.

***Lord Corc ROBERTSON,***

***NATO-nun Baş katibi***

* * *

Mütərəqqi dünya ictimaiyyətinin geniş dairələrində Sizi görkəmli siyasi xadim və dövlət xadimi kimi tanıyırlar. Yeniləşmiş Azərbaycan dövlətinin tarixinə yazılmış parlaq səhifələr Sizin adınızla bağlıdır.

***Q.ŞOKİN,***

***Beynəlxalq Kadr Akademiyasının prezidenti***

* * *

Çox böyük təcrübəniz, siyasi və həyat müdrikliyiniz, nüfuzunuz, ən başlıcası isə, ölkə sakinlərinin dəstəyi Azərbaycan Respublikasının prezidenti vəzifəsi kimi məsul işdə Sizə kömək edir.

Sevindirici haldır ki, Siz ölkələrimiz və xalqlarımız arasında ənənəvi dostluq münasibətlərinin saxlanmasına və möhkəmlənməsinə böyük diqqət yetirirsiniz.

***Boris YELTSİN,***

***Rusiya Federasiyasının birinci prezidenti***

* * *

Bu qədər əhəmiyyətli uğurlar məhz Sizin uzaqgörən rəhbərliyinizin nəticəsi olaraq gerçəkləşə bilmişdir. Həqiqətən də, bu gün ölkənin neft və qaz sənayesinin inkişafında yeni, əlamətdar bir mərhələnin təcəssümü olaraq xüsusi önəm daşıyır. Elə bir mərhələnin ki, bu, Azərbaycanın təbii ehtiyatlarından onun xalqının və ümumən bölgənin işıqlı sabahı naminə istifadə edilməsi ilə bağlı uzaqgörən baxışlarınızı gerçəkliyə çevirəcəkdir.

Sizin dəyərli rəhbərliyinizdən faydalanan daha bir mühüm təşəbbüs, yəni BTC şirkətinin yaradılması ilə mühüm irəliləyiş müşahidə olunur. Layihə bu il yüksək göstəricilərə nail olmuşdur və hər üç ölkədə qrafikə tam uyğun həyata keçirilməkdədir. Nazirlər Kabinetinin 7 aprel tarixli qərarına uyğun olaraq, torpaq kompensasiyalarının ödənilməsi prosesinə başlanmışdır ki, bu da iyun ayında başa çatacaqdır. Eyni zamanda, artıq hər üç ölkədə layihənin inşaat mərhələsi başlamışdır. BTC layihəsi yalnız Azərbaycan neftinin dünya bazarına ixrac edilməsinə mühüm töhfə olaraq qalmayacaqdır. Bu, eyni zamanda bölgədə iqtisadi inkişafı sürətləndirəcək, regional sülh və təhlükəsizlik məsələləri üçün əhəmiyyət daşıyan müttəfiqlik əlaqələrini daha da möhkəmləndirəcəkdir. Bilirəm ki, bunlar Sizin qəlbən önəm verdiyiniz məsələlərdir.

Sizin davamlı dəstəyinizlə biz bölgədə dünya səviyyəsinə cavab verən biznes təcrübəsi yaradırıq və inanıram ki, sıx əməkdaşlığımız şəraitində biz bütün məqsədlərimizə nail olmağa tam hazırıq. Qəti əminik ki, bu layihələr Azərbaycanı qlobal enerji bazanın aparıcı qüvvəsinə çevirməklə bağlı Sizin uzaqgörənliklə yaşatdığınız ideyanıza mühüm bir töhfə olacaq və ölkəyə sərmayə qoyuluşları axınına əhəmiyyətli dərəcədə yol açacaqdır. Azərbaycan, onun xalqı və tərəfdaşları üçün bu gözəl gündə, bu fərəhli anlarda Sizə cansağlığı, xalqınızın və bölgənin xoşbəxtliyi və inkişafı naminə həyata keçirdiyiniz yorulmaz işlərinizdə, tükənməz fəaliyyətinizdə sonsuz uğurlar arzulayıram.

***Devid VUDVORD,***

***«bp Azərbaycan» şirkətinin prezidenti***

* * *

Prezident Heydər Əliyev, həqiqətən, dünya siyasətinin patriarxıdır, onun şəxsiyyəti hər hansı dövlət xadimi üçün parlaq örnək ola bilər. Hesab edirəm ki, Heydər Əliyevin həyatı öz xalqına, vətəninə fədakarcasına xidmətin bariz nümunəsidir.

Bunu deməyə lüzum yoxdur ki, bütün çoxşaxəli fəaliyyəti ərzində Heydər Əliyev haqqında - uzaqgörənliyi, öz siyasətini qurmaq bacarığı, tükənməz iş qabiliyyəti, nəhayət, nadir yaddaşı haqqında, az qala, əfsanələr gəzib-dolaşır.

Şübhəsiz, Azərbaycanın bəxti gətirmişdir ki, Tanrı Heydər Əliyev kimi lider, prezident bəxş etmişdir, özü də, Azərbaycanın müqəddəratı, suverenliyi və bütövlüyü təhlükə qarşısında qaldığı bir vaxtda! Biz hamımız bilirik ki, Heydər Əliyev ölkəni nəinki böhrandan və hərc-mərclikdən çıxardı, həm də onu bütün postsovet məkanında sanballı dövlətlərdən birinə, dünyada sayılıb-seçilən dövlətə çevirdi.

***Əbdülvahid NİYAZOV,***

***Rusiya Dövlət Dumasının deputatı, «Avrasiya» Fraksiyalararası Birliyi Şurasının sədri***

* * *

Həqiqətən, Sizin qətiyyətiniz, əzminiz nəticəsində bir vaxtlar bizə yuxu kimi, yalnız arzu kimi görünən məsələlər indi həqiqətə çevrilmək üzrədir. Sizin neft və qaz strategiyanız, siyasətiniz uğurla həyata keçir və dünyada əfsanə kimi görünən neft kəməri artıq reallığa çevrilir. Hazırda işlər gedir və bütün bu işlərin hamısı bir vaxtlar Sizin əkdiyiniz toxumlardır ki, indi cücərməyə başlayır, bar verir. Bütün bu işlərin hamısına biz Sizin qətiyyətiniz sayəsində müvəffəq olmuşuq.

***Con BRAUN,***

***«bp şirkətinin» prezidenti***

## Vəfatından sonra

Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin qorunub saxlanmasında böyük əhəmiyyət kəsb etmişdir. Eyni zamanda onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın XXI əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

***Corc BUŞ,***

***ABŞ-ın prezidenti***

* * *

Heydər Əliyev, həqiqətən, Rusiyanın böyük dostu idi, biz bunu hiss edirdik və çox qiymətləndiririk. Azərbaycan bütün bu illər ərzində MDB-nin az-az ölkələrindən biri idi ki, orada rusdilli məktəblər bağlanmamış, rus-dilli nəşrlərin sayı nəinki azalmamış, hətta Sovet İttifaqı dövründəkindən də çox olmuşdur...

O, böyük dövlət xadimi idi. Mübaliğəsiz demək olar ki, siyasət nəhəngi idi. Mən ona, sadəcə, böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim. Bu, böyük itkidir.

***Vladimir PUTİN,***

***Rusiya Federasiyasının prezidenti***

* * *

Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirdim.

Arzu edirəm ki, Minsk qrupu həmsədrlərinin dəstəyi ilə onun səyləri davam etdirilsin və uğurla nəticələnsin.

***Jak ŞİRAK,***

***Fransanın prezidenti***

* * *

Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır

***Gerhard ŞRÖDER,***

***Almaniya Federativ Respublikasının federal kansleri***

* * *

Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər.

Onun prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxşılaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, iqamətgahında bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

***Toni BLEYER,***

***Böyük Britaniyanın baş naziri***

***

Prezident Heydər Əliyev Azərbaycanın müstəqillik qazanmasının, ölkənin bugünkü inkişafının təməlini qurmaqla bərabər, regionda sülh və sabitliyin qorunması istiqamətində misilsiz xidmət göstərən əvəzolunmaz bir lider idi.

***Dzünitiro KOİDZUMİ,***

***Yaponiyanın baş naziri***

* * *

Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına, ölkələrimiz arasındakı dostluq və qardaşlıq əlaqələrinin inkişaf edərək möhkəmlənməsinə böyük töhfə vermiş Heydər Əliyevin dünyasını dəyişməsi, Azərbaycanda olduğu kimi, Türk ulusunda da dərin kədər yaratmışdır.

Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm.

Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.

Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir.

***Əhməd Necdət SEZƏR,***

***Türkiyə Respublikasının prezidenti***

* * *

Hazırda ölkələrimizin bəhrələndiyi dostluq münasibətləri Heydər Əliyevin qətiyyəti və liderliyinin irsidir. Buraya bizim terrorizmə qarşı mübarizədə sıx əməkdaşlığımız da daxildir. Heydər Əliyev öz davamlı töhfələri ilə Azərbaycanın uzunmüddətli iqtisadi firavanlığının əsasını qoydu. O, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması yolunda çox çalışdı. Birləşmiş Ştatlar onun qoyduğu bu möhkəm əsaslar üzərində əlaqələri inkişaf etdirməyi davam edəcək, Azərbaycanın suverenliyini, firavanlığını və demokratik inkişafını dəstəkləyəcəkdir.

***Dik ÇEYNİ,***

***Amerika Birləşmiş Ştatlarının vitse-prezident.***

* * *

Prezident Heydər Əliyevin vəfatı xəbəri məni dərindən kədərləndirdi Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır.

***Xu SZİNTAO,***

***Çin Xalq Respublikasının sədri***

* * *

Prezident Heydər Əliyevin vəfatı barədə xəbəri kədər və təəssüf hissi ilə aldım. O, yenicə ayağa qalxan Azərbaycan Respublikasının sabitlik və tərəqqiyə qovuşmasında təsirli rol oynamış, gözəl Azərbaycan xalqının rifahı, asayişi naminə səy göstərmiş təcrübəli və məşhur siyasət xadimi olmuşdur.

Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir. Onun keçən il İran İslam Respublikasına çox səmərəli səfəri ölkələrimizin əlaqələrində dönüş nöqtəsi olmuşdur.

***Seyid Məhəmməd XATƏMİ,***

***İran İslam Respublikasının prezidenti.***

* * *

Heydər Əliyevin həyat yolu öz xalqına, regionda və bütün planetdə sülhə və sabitliyə xidmətin nümunəsidir. Onun cəmiyyət naminə titanik zəhməti, fədakarlığı sayəsində Azərbaycan möhkəm, iqtisadi cəhətdən inkişaf etmiş və sabit dövlətə çevrilmişdir. O, ölkənizin gəncləri üçün yolgöstərən ulduz idi. Onun gənc nəslə qayğısı digər dövlətlərin liderləri üçün nümunə ola bilər. Azərbaycan skautlarının beynəlxalq tədbirlərdə fəal iştirakı, dünyanın müxtəlif ölkələrinin gənclərinin iştirakı ilə Sizin ölkənizdə skaut toplantılarının keçirilməsi, Avrasiya regionunun Avrasiya Skaut konfransının 2004-cü ildə Bakı şəhərində keçirilməsinə kömək göstərməsi bu qayğının parlaq nümunəsidir.

Assosiasiyası sıralarında birləşən gənc vətəndaşlar "Heydər Əliyevin yolu ilə - həmişə irəli!" şüarını özlərinin devizi seçmişlər. Heydər Əliyevin nurlu xatirəsi insanların qəlbində əbədi yaşayacaqdır.

***Yuri YEMİLİAN,***

***Avrasiya Regional Skaut Komitəsinin sədri.***

* * *

Rusiyanın böyük dostu, Sovet İttifaqının görkəmli siyasi xadimi, Azərbaycan Respublikasının böyük oğlu Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı xəbərini dərin kədər hissi ilə eşitdim.

Onun vəfatı ilə Rusiya öz sabiq müttəfiqini, Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlığın dərinləşməsi və inkişafının möhkəm əqidəli və ardıcıl tərəfdarını itirdi.

Heydər Əlirza oğlu Əliyevin adı Azərbaycan Respublikasının yaradılması, onun dövlətçiliyinin və beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi tarixinə qızıl hərflərlə yazılacaqdır.

***Boris QRIZLOV,***

***Rusiya Federasiyasının daxili işlər naziri.***

* * *

Biz Heydər Əliyevin ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin inkişafına töhfəsini, onun Azərbaycan Respublikasında sabitliyin möhkəmlənməsi və xalqın rifah halının yüksəldilməsi sahəsində fəaliyyətini yüksək qiymətləndiririk.

Heydər Əliyev Sovet İttifaqı hökumətində mədəniyyət və incəsənətin inkişafı məsələləri ilə məşğul olarkən onun göstərdiyi qayğını və diqqəti yaxşı xatırlayırıq.

***Mixail ŞVIDKOY,***

***Rusiya Federasiyasının mədəniyyət naziri.***

* * *

Şübhə yoxdur ki, Heydər Əliyevin adı vətəninizin tarixinə qızıl hərflərlə yazılacaqdır. Onun bilavasitə dəstəyi sayəsində Rusiya ilə Azərbaycan arasında, Moskva vilayəti ilə ölkəniz arasında yeni münasibətlərin təşəkkülü və inkişafı üçün çox işlər görülmüşdür.

Azərbaycan xalqının şanlı oğlu Heydər Əlirza oğlu Əliyevin nurlu xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

***Boris QROMOV,***

***Moskva vilayətinin qubernatoru, Sovet İttifaqı Qəhrəmanı.***

* * *

Böyük hörmət və pərəstiş etdiyim Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri məni dərindən sarsıtdı. Görkəmli siyasətçi, böyük insan və vətənpərvər, Azərbaycan xalqının layiqli oğlu həyatdan getmişdir. O, hörmətə və pərəstişə layiq uzun ömür yolu keçmiş, özünün xeyirxah əməlləri ilə doğma respublikasının tarixinə çoxlu işıqlı səhifələr yazmışdır. Heydər Əlirza oğlu son günlərinədək Azərbaycanın, öz xalqının taleyinə biganə olmamışdır. Onun nurlu adı, vətəni naminə gördüyü böyük işlər insanların yaddaşında əbədi yaşayacaqdır.

***Aman TULEYEY,***

***Kemerovo vilayətinin qubernatoru.***

* * *

Azərbaycan xalqı əvəzsiz itki vermişdir. İstedadlı siyasətçi, böyük islahatçı rəhbər, dərin biliyə və zəngin həyat təcrübəsinə malik insan həyatdan getmişdir.

Heydər Əlirza oğlu Azərbaycan dövlətçiliyinin formalaşmasına, vətəndaşların hüquq və azadlıqlarının qorunmasına, doğma Azərbaycanın tərəqqisinə, həqiqətən, misilsiz töhfə vermişdir.

***Dmitri AYATSKOV,***

***Saratov vilayətinin qubernatoru.***

* * *

Azərbaycanın görkəmli lideri Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı ilə əlaqədar ən səmimi başsağlığımı qəbul edin. Azərbaycanın müasir tarixi, ölkədə aparılan siyasi və iqtisadi dəyişikliklər Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Onun siyasi müdrikliyi, iradəsi, uzaqgörənliyi və vətəninə hədsiz sədaqəti insanların xoş xatirəsində əbədi qalacaqdır.

***Eduard ROSSEL,***

***Sverdlovsk vilayətinin qubernatoru.***

* * *

Azərbaycan xalqına ağır itki üz vermişdir və biz onunla birlikdə kədərlənirik. Görkəmli siyasi xadim, çox dərin zəkaya və heyranedici cazibə qüvvəsinə malik insan həyatdan getdi.

Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür.

***Nursultan NAZARBAYEV,***

***Qazaxıstan Respublikasının prezidenti.***

* * *

Heydər Əliyevin adı doğma torpaqla qırılmaz surətdə bağlıdır. Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh axtarışı Heydər Əlirza oğluna bütün dünyada yüksək nüfuz və səmimi hörmət qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaqdır.

***Emoməli RƏHMONOV,***

***Tacikistan Respublikasının prezidenti.***

* * *

Qırğızıstanda Heydər Əlirza oğlunu müstəqil Azərbaycanın təşəkkülünə və inkişafına misilsiz töhfə vermiş görkəmli dövlət xadimi, dünyamiqyaslı siyasətçi kimi yaxşı tanıyırdılar.

Onun rəhbərliyi ilə Azərbaycan Respublikası müstəqil inkişaf yolunda böyük uğurlar qazanmış, dünya birliyinin tanınmış və hörmətli üzvü olmuşdur. Heydər Əlirza oğlu özünün bütün istedad və müdrikliyini, Vətənə məhəbbətini, əməksevərliyini və fədakarlığını Azərbaycanın tərəqqisi işinə həsr etmişdir.

Heydər Əlirza oğlu bizim xatirəmizdə bütün ömrünü öz Vətəninə xidmətə həsr etmiş görkəmli siyasətçi kimi, Azərbaycan xalqının sədaqətli oğlu kimi qalacaqdır.

***Əsgər AKAYEV,***

***Qırğızıstan Respublikasının prezidenti.***

* * *

Hörmətli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin adı və nüfuzu Azərbaycan Respublikasının beynəlxalq birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlı olacaqdır.

Biz müasir beynəlxalq gerçəklik şəraitində Bolqarıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük şəxsi töhfəsini yüksək qiymətləndiririk.

***Georgi PIRVANOV,***

***Bolqarıstan Respublikasının prezidenti.***

* * *

Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində. beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir.

Əvəzolunmaz və ağır itki ilə əlaqədar Sizin üçün və bütün Azərbaycan xalqı üçün bu çətin gündə Özbəkistan xalqı adından və şəxsən öz adımdan ən dərin hüznlə başsağlığı vermək və dərdinizə şərik çıxdığımızı bildirmək istəyirəm.

***İslam KƏRİMOV,***

***Özbəkistan Respublikasının prezidenti.***

* * *

Heydər Əliyevin həyatdan getməsi onu tanıyanların, sevənlərin, ona hörmət edənlərin hamısının qəlbini ağrıtmışdır. O, bütün həyatını doğma xalqına, öz ana Vətəninə fədakarcasına xidmətə həsr etmişdir.

Moldova Respublikasında Heydər Əliyevi həmişə böyük vətənpərvər kimi, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, Avropada və bütün dünyada demokratiya idealları uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər.

***Vladimir VORONİN,***

***Moldova Respublikasının prezidenti.***

* * *

Qardaş və dost Azərbaycanın firavanlıq və sabitlik şəraitində yaşayan bir ölkə olması üçün böyük xidmətlər göstərən mərhum Heydər Əliyevin müdrik rəhbərliyi türk dünyası, bütün beynəlxalq birlik tərəfindən təqdirlə qarşılanır.

Azərbaycanın yetirdiyi böyük dövlət adamı Heydər Əliyev ölkələrimiz arasında müştərək tarix və mədəniyyətə əsaslanan əlaqələrin inkişafına və bununla da qardaşlıq və dostluğumuzun möhkəmlənməsinə böyük töhfə vermişdir.

***Bülənd ARINÇ,***

***Türkiyə Böyük Millət Məclisinin sədri***

* * *

Heydər Əlirza oğlu Əliyevin bütün həyat yolu Vətənə və xalqa fədakarcasına xidmətə həsr edilmişdir. Onun dövlət müdrikliyi və uzaqgörənliyi Qafqazda sülh yaratmağa və bu bərəkətli torpaqlara müharibənin bir daha gəlməyəcəyinə inanmağa imkan verdi.

O, Azərbaycan xalqının böyük oğlu və görkəmli prezident kimi qəlbimizdə həmişəlik qalacaqdır. Respublikada sabitlik və müstəqil Azərbaycanın tərəqqiyə doğru yolunun başlanması məhz onun adı ilə bağlıdır.

Bu itki bütün Müstəqil Dövlətlər Birliyi üçün, keçmiş ümumi vətənimizdə - Sovet İttifaqında doğulub, boya-başa çatmış insanlar üçün də itkidir. Sovet İttifaqının rəhbərlərindən biri kimi, o, burada məskunlaşmış xalqların həyatının yaxşılaşması üçün çox qüvvə sərf etmişdir.

***Vladimir RUŞAYLO,***

***Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi.***

* * *

Suveren dövlətlər kimi Ukrayna ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsi naminə Prezident Heydər Əliyevin yorulmadan çəkdiyi zəhməti və göstərdiyi müdrik dəstəyi Ukraynada xatırlayır və yüksək qiymətləndirirlər. Bu münasibətlər, həqiqətən, Ukrayna və Azərbaycan xalqlarının mənafelərinə xidmət edir.

***Vladimir LİTVİN,***

***Ukrayna AIi Radasının sədri.***

* * *

Biz Azərbaycan Respublikası prezidentinin həm öz ölkəsinin xalqı üçün, həm də başqa xalqlar üçün gördüyü bütün işləri heç zaman unutmayacağıq. Heydər Əlirza oğlu görkəmli dövlət xadimi və siyasi xadim olmuşdur. Azərbaycan Respublikasının suveren dövlət kimi təşəkkül tapması həmişə Onun adı ilə bağlı olacaqdır.

Heydər Əlirza oğlunun nurlu obrazı qəlbimizdə həmişəlik qalacaqdır.

***Yuri LUJKOV,***

***Moskvanın meri***

* * *

Özünün bütün qüvvə və biliyini müstəqil Azərbaycan dövlətinin təşəkkülü işinə həsr etmiş görkəmli dövlət xadimi və siyasi xadim həyatdan getmişdir. Uzun illər ərzində Heydər Əlirza oğlunun dövləti fəaliyyəti dövlət təhlükəsizliyi orqanlarında xidmətlə bağlı olmuşdur. Burada o, Azərbaycan DTK-nın əməliyyat işçisindən rəhbərinədək layiqli bir yol seçmişdir.

Heydər Əlirza oğluna xas olan yüksək siyasi və işgüzar keyfiyyətlər, səmimilik və insanlara qarşı həssaslıq ona təkcə Vətənində deyil, çox-çox uzaqlarda da dərin hörmət qazandırmışdır.

***Nikolay PATRUŞEV,***

***MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik Orqanları Rəhbərləri Şurasının sədri, ordu generalı.***

* * *

Heydər Əlirza oğlunun bütün həyatı aramsız qələbələr və nailiyyətlərdən ibarət olmuşdur. O, qeyri-adi bacarığa və fitri müdrikliyə malik olaraq, bütün şüurlu həyatını vətənə xidmətə həsr etmişdir. Müstəqil Azərbaycan üçün ağır vaxtlarda Heydər Əlirza oğlu Əliyev Vətənin gələcəyinə görə məsuliyyəti öz üzərinə götürdü və qısa tarixi müddətdə xalqına sülh və əmin-amanlığı, dövlətə yeniləşməni, sabitliyi və inkişafı təmin

etdi. Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun yüksəlməsinə, Müstəqil dövlətlər Birliyinin möhkəmlənməsinə və təşəkkülünə onun töhfəsi misilsizdir. Heydər Əlirza oğlu Əliyevin adı və işi milyonlarla insanın taleyində parlaq iz buraxmış, Azərbaycanın və Müstəqil Dövlətlər Birliyinin tarixinə həmişəlik yazılmışdır.

Tale mənə Prezident Heydər Əliyev ilə dəfələrlə şəxsən ünsiyyətdə olmaq imkanı bəxş etmişdir. Bu görüşlər barədə, müdrik siyasətçi, istedadlı rəhbər və gözəl insan Heydər Əlirza oğlu Əliyev haqqında işıqlı xatirələr qəlbimdə həmişəlik qalacaqdır.

***Yuri YAROV,***

***Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin sədri - icraçı katibi.***

* * *

Azərbaycan Respublikasının iqtisadiyyatda, siyasətdə, sosial problemlərin həllində qazandığı nailiyyətlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlunun adı ilə bağlıdır. Onun siyasi iradəsi, qətiyyəti və məqsədyönlülüyü, öz ölkəsinə və xalqına çox böyük məhəbbəti sayəsində Azərbaycanda demokratiya, sabitlik və sülh bərqərar olmuşdur.

Heydər Əlirza oğlu Müstəqil Dövlətlər Birliyi ölkələrinin siyasi və iqtisadi inteqrasiyasına misilsiz töhfə vermiş, MDB-nin Parlamentlərarası Assambleyasını yaratmaq ideyasını birincilər sırasında dəstəkləmişdi, onun işinə fəal və əməli surətdə kömək göstərirdi.

MDB Parlamentlərarası Assambleyasının üzvləri, Müstəqil Dövlətlər Birliyi ölkələrinin deputatları onun prinsipial mövqeyini, müdrikliyini və siyasi duyumunu, islahatların aparılmasına, ümumi hüquqi məkan yaradılmasına köməyini yüksək qiymətləndirirdilər. O, bizim xatirəmizdə dünya miqyaslı dövlət xadimi və siyasi xadim, bütün həyatını öz Vətəninə, öz xalqına həsr etmiş müdrik və zəngin təcrübəli ölkə rəhbəri kimi qalacaqdır.

***Mixail KROTOV,***

***MDB Parlamentlərarası Assambleya Şurasının baş katibi.***

***Akif CƏFƏROV,***

***baş katibin müavini.***

* * *

Mərhum Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan bu gün xarici siyasətində etibar və sabitlik amili kimi çıxış edən, iqtisadi inkişaf və sosial rifah yolunda möhkəm addımlarla irəliləyən, beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi etibarlı mövqeyini gündən-günə təmin etməkdə olan ölkədir. Azərbaycanın bu gün yürütdüyü uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarı olan Heydər Əliyevi itirməyimiz tarixi və mədəni tellərlə bir-birinə bağlanmış olan xalqlarımızı dərindən kədərləndirmişdir.

Türkiyə ilə Azərbaycan arasındakı qarşılıqlı dostluğa və əməkdaşlığa əsaslanan münasibətlərin bugünkü yüksək səviyyəyə çatmasında mərhum Heydər Əliyevin səyləri hər zaman xatırlanacaqdır.

***Abdulla GÜL,***

***Türkiyə Respublikasının xarici işlər naziri və baş nazirin müavini.***

* * *

Sovet epoxasının və müstəqil Azərbaycanın görkəmli dövlət, siyasi və ictimai xadiminin, ölkənin danılmaz və olduqca nüfuzlu liderinin - bütün Azərbaycan xalqının mənafelərini uca tutaraq, ölkəyə otuz ildən artıq bir dövrdə inamla rəhbərlik etmiş liderin vəfatı ilə əlaqədar dərin hüzn keçirirəm.

Rusiya üçün Heydər Əlirza oğlu Əliyev tarixə XXI əsrdə hərtərəfli Azərbaycan-Rusiya münasibətlərinin, iki dövlətin strateji tərəfdaşlığının möhkəmlənməsinin əqidəli və fəal tərəfdarı kimi daxil olmuşdur.

***Vyaçeslav TRUBNİKOV,***

***Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini,***

***Rusiya Federasiyası prezidentinin MDB-nin üzvü olan dövlətlərdə***

***federal nazir dərəcəsində xüsusi nümayəndəsi, ordu generalı.***

* * *

Həyatdan elə bir insan getdi ki, onun çoxşaxəli fəaliyyəti öz ölkəsinin və xalqının rifahının yüksəldilməsinə yönəldilmişdi, onun sayəsində Azərbaycanda sülh və həmrəylik bərqərar olmuşdur, dövlətçilik möhkəmlənmiş və yeni inkişaf tapmış, iqtisadi sahədə mühüm islahatlar aparmışdır.

Dağıstanlılar Heydər Əlirza oğlunu yaxşı tanıyırlar və onun Dağıstana xoş münasibətini həmişə xatırlayacaqlar, çünki onun bu münasibəti sayəsində xalqlarımız arasında dostluq və mehriban qonşuluq ənənələri yaranmışdır və uzun illərdən bəri mövcuddur. Onun adı xatirəmizdə həmişəlik qalacaqdır.

***Məhəmmədəli MƏHƏMMƏDOV,***

***Dağıstan Respublikası Dövlət Şurasının sədri.***

* * *

Müstəqil Dövlətlər Birliyi ölkələrinin siyasi həyatında Heydər Əlirza oğlunun oynadığı rolu lazımınca qiymətləndirmək çətindir.

Müdrik siyasətçi olaraq o, ən mürəkkəb vəziyyətdə konstruktiv qərarlar tapmağı bacarırdı. Təkcə Azərbaycan deyil, həm də postsovet məkanının bütün ölkələri nüfuzlu dövlət liderini itirdilər.

Heydər Əlirza oğlunun vəfatı Tatarıstan Respublikası sakinlərinin ürəyini göynətdi. Biz itkinin acısını qardaş Azərbaycan xalqı ilə bölüşürük və Azərbaycan Respublikasına sülh və tərəqqi arzulayırıq. Bu, bütün ömrünü öz xalqının xoşbəxtliyinə və firavanlığına həsr etmiş o gözəl insana ən yaxşı abidə olacaqdır.

***Mintimer ŞAYMİYEV,***

***Tatarıstan Respublikasının prezidenti.***

* * *

Heydər Əlirza oğlu böyük siyasətçi, dahi dövlət rəhbəri və vətənpərvər, gözəl, istedadlı insan kimi məşhur idi. Sovet dövlətinin, sonralar MDB-nin və Azərbaycan Respublikasının tarixinin bir çox parlaq və əhəmiyyətli səhifələri onun adı ilə bağlıdır.

Heydər Əlirza oğlu Əliyevin nurlu xatirəsi qəlbimizdə həmişəlik qalacaqdır.

***Murtuza RƏHİMOV,***

***Başqırdıstan Respublikasının prezidenti.***

* * *

Heydər Əlirza oğlu qeyri-adi, genişmiqyaslı insan, ən görkəmli siyasətçilərdən biri idi. O, prinsipiallığı, yüksək vətəndaş mövqeyi, siyasi müdrikliyi, cəsarətliliyi və son dərəcə alicənablığı ilə həmişə fərqlənirdi. Bu keyfiyyətlər onu hətta yaxından tanımayan adamlarda da ona daim hörmət hissi doğururdu. Dərdinizi azalda biləcək sözlər tapmaq çətindir. Bu, ağır və əvəzsiz itkidir.

***Murad ZYAZİKOV,***

***İnquşetiya Respublikasının prezidenti.***

* * *

Heydər Əlirza oğlu Əliyev Azərbaycanın və keçmiş SSRİ-nin sosial-iqtisadi və mədəni həyatına, həqiqətən, tarixi töhfə vermişdir. Rusiyanın və Azərbaycanın mehriban qonşuluq və qarşılıqlı surətdə faydalı münasibətlərinin yeni tarixi şəraitdə bərpasında onun rolunu, bütün Rusiyada olduğu kimi, Osetiya-Alaniyada da yüksək qiymətləndirirlər.

Ən məsul qərarların qəbulu zamanı onun ölçüb-biçilmiş mövqeyi Cənubi Qafqazda sülhün və sabitliyin möhkəmlənməsinə, Müstəqil Dövlətlər Birliyinin təkmilləşməsinə kömək edirdi.

***Aleksandr DZASOXOV,***

***Şimali Osetiya-Alaniya Respublikasının prezidenti.***

* * *

Heydər Əliyevin vəfatı Rusiya və Azərbaycanın qardaşlıq münasibətlərini əziz tutanların hamısı üçün ağır zərbədir. Heydər Əlirza oğlu bu münasibətlərin inkişafına çox böyük töhfə vermişdir.

Bütün postsovet məkanında müasir siyasətçilərin bütöv bir nəslinin yetişdirilməsində Heydər Əlirza oğlunun xidməti misilsizdir. Dünya səviyyəli görkəmli dövlət xadimi kimi Heydər Əlirza oğlu ilə şəxsi görüşlərimlə bağlı xatirələri qəlbimdə həmişəlik saxlayacağam.

Kalmıkiya Respublikasının xalqı və rəhbərliyi bu itki ilə əlaqədar Azərbaycan xalqının kədərinə şərik çıxır və əmin olduqlarını bildirirlər ki, doğma ölkəsinin tərəqqisinə çalışmış Heydər Əlirza oğlu Əliyevin işi davam etdiriləcəkdir.

***Kirsan İLYUMJİNOV,***

***Kalmıkiya Respublikasının prezidenti, FİDE-nin prezidenti.***

* * *

Görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri məni sarsıtdı. Həqiqi milli lider olaraq, o, Azərbaycan xalqının, bütün dünya birliyinin layiqli hörmətini qazanmışdı. Rusiyanın və Azərbaycanın dostluq. tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə və inkişafına onun verdiyi töhfəni qiymətləndirmək çətindir.

Bu güclü və cəsur insanı tanıyanların hamısı onun nurlu xatirəsini qəlbində saxlayacaqdır.

***Boris YELTSİN,***

***Rusiya Federasiyasının birinci prezidenti.***

* * *

Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın tam müstəqilliyi qovuşmasında çox böyük xidmətləri olan hörmətli Heydər Əliyevin vəfatı həm ölkəniz, həm ölkəmiz, həm bütün dünya üçün böyük itkidir. Hörmətli Heydər Əliyevin dediyi kimi, bir millət, iki ayrı dövlətik.

Azərbaycan ilə Türkiyə arasında dərin kökləri olan tarixi və mədəni bağlar vardır. Hörmətli Əliyev tarixdən gələn bu bağların yenidən canlandırılması və Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin inkişafı üçün fövqəladə səylər göstərmişdir.

Təkcə Azərbaycanda yox, bütün Qafqazda sülh və demokratiyanın inkişafında xidmətləri olan hörmətli Heydər Əliyev heç vaxt unudulmayacaqdır. İnanıram ki, hörmətli Heydər Əliyevin dəyəri ölkəsində, bölgədə və hətta dünyada günü-gündən daha yaxşı anlaşılacaqdır.

***Bülənd ECEVİT,***

***Demokratik Sol Partiyasının sədri.***

* * *

Müstəqilliyin ilk illərində Azərbaycanda sabitlik yaradılmasında cənab Heydər Əliyevin rolu yaxşı məlumdur. Onun güclü liderliyi sayəsində Azərbaycan dünya dövlətləri arasında öz mövqeyini təsdiq edə bildi. O, həm də iqtisadi inkişaf və sərmayələr üçün yeni imkanlar açılması işinə töhfə verdi. Mən ümidvaram ki, cənab Heydər Əliyevin irsi firavan və demokratik Azərbaycan qurulması üçün möhkəm əsas olacaq, bu irsdən ölkənin xalqı bəhrələnəcəkdir.

***Jan LEMYER,***

***Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti.***

* * *

Heydər Əliyevin əfsanəvi yorulmaz iş qabiliyyəti var idi, amma təəssüf ki, həyatdan getdi. O, Azərbaycanın müstəqilliyini qüvvətləndirən və ölkənin Avropa ilə, xüsusən Avropa Şurası ilə əlaqələrini möhkəmləndirən şəxsiyyət kimi həmişə yadda qalacaqdır.

***Piter ŞİDER,***

***Avropa Şurası Parlament Assambleyasının sədri.***

* * *

Prezident Heydər Əliyev müstəqil Azərbaycanın dünyanın demokratik dövlətlər ailəsinə birləşmək mövqeyinin təşəbbüskarı oldu. Bizim institut bu mövqe ilə həmfikirdir. Biz onun Milli Demokratiya İnstitutuna və Bakıya gəlmiş hər bir üzvümüzə göstərdiyi diqqətli və mehriban münasibətinə hörmətlə yanaşırıq. Onun həyat yolu daim xatirələrdə yaşayacaqdır.

***Səfir Nelson LEDSKİ,***

***ABŞ Milli Demokratiya İnstitutunun Avrasiya üzrə regional direktoru.***

* * *

Öz xalqının böyük oğlu, XX yüzilliyin ən parlaq siyasi xadimlərindən biri, müdrik və uzaqgörən bir insan həyatdan getmişdir.

Bu, təkcə onun sədaqətlə xidmət etdiyi Azərbaycan və Azərbaycan xalqı üçün deyil, həm də bütün beynəlxalq birlik üçün əvəzsiz itkidir.

***Sergey ORCONİKİDZE,***

***BMT baş katibinin müavini, BMT-nin Cenevrə bölməsinin baş direktoru.***

* * *

Son illər Heydər Əliyevlə bir neçə dəfə görüşmək şərəfinə nail olmuşam. Heydər Əliyev, onu tanıyanların hamısı kimi, mənim də xatirəmdə təkcə var qüvvəsini öz ölkəsinin və Azərbaycan xalqının rifahına həsr etmiş bir dövlət xadimi kimi deyil, həm də yeni ideyalara və dialoqa həmişə hazır olmaqla, öz əqidəsinə sadiq qalan prinsipial bir insan kimi yaşayacaqdır.

***Canni BUKİKKİO,***

***Hüquqi Demokratiya üzrə Avropa Komissiyasının katibi.***

* * *

Heydər Əliyev bizim yaddaşımızda Azərbaycan xalqının ləyaqətli, bütün həyatını ölkəsinin inkişafına və çiçəklənməsinə həsr etmiş oğlu kimi qalacaqdır. Son on ildə Azərbaycandakı demokratik dəyişikliklər məhz onun adı ilə bağlıdır və o, haqlı olaraq müasir Azərbaycanın memarı hesab edilir.

Heydər Əliyev öz ölkəsinin hüdudlarından kənarda, beynəlxalq aləmdə də böyük nüfuz və hörmət sahibi olan parlaq siyasətçi kimi tanınmışdır.

Biz Bolqarıstan xalqının böyük dostunun həyatdan getməsinə səmimi qəlbdən kədərlənirik.

***Sergey STANİŞEV,***

***Bolqarıstan Sosialist Partiyası Ali Şurasının sədri.***

* * *

Heydər Əliyev haqlı olaraq öz xalqının milli qəhrəmanı kimi tanınmışdır. Onun adı dünya tarixinə də həmişəlik yazılacaqdır. O, müdrikliyi, prinsipiallığı, gözəl insani keyfiyyətləri ilə fərqlənirdi. O, Azərbaycana epoxaların ayırıcında başçılıq edərək, kəşməkəşli, çox çətin illərdə Vətən qarşısında öz borcunu şərəflə yerinə yetirdi.

***L. SLUTSKİ,***

***RF Dövlət Dumasının Beynəlxalq məsələlər komitəsi sədrinin müavini.***

* * *

Adını uşaqlıq illərindən bildiyin insan haqqında keçmiş zamanda danışmaq çətindir və ürək ağrıdır. Ömrünün uzun illərini ümumi Vətənimizə xidmət etmiş Sovet İttifaqının görkəmli dövlət xadimi Azərbaycana çətin vaxtlarda başçılıq etmişdir.

Bəzi siyasətçilərə ağıl-zəka ilə, digərlərinə qəlbən səs verirlər. Azərbaycan xalqı Heydər Əlirza oğlunu həm ağıl-zəka ilə, həm də qəlbən seçmişdi. Öz Vətəninə hədsiz sadiq olan Heydər Əlirza oğlu özünü tamamilə

və bütünlüklə Azərbaycana həsr etmiş və Azərbaycanın ulduzunun dünya səmasında parlaması üçün hər şeyi etmişdir. Şübhə yoxdur ki, onun başladığı və nəzərdə tutduğu bütün işlər həyata keçəcəkdir.

Heydər Əlirza oğlu siyasi konyunkturanı bir kənara ataraq, Azərbaycan-Rusiya münasibətlərini uzunmüddətli strateji təməl üzərində qurmuş, xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə böyük töhfə vermişdir.

***Sergey STEPAŞİN,***

***Rusiya Federasiyası Hesablama Palatasının sədri.***

* * *

Heydər Əliyevin vəfatı barədə kədərli xəbər bütün dağıstanlıların qəlbini dərindən göynətdi. Görkəmli dövlət xadimi, müasir Azərbaycan dövlətinin banisi, beynəlxalq aləmdə tanınmış lider və siyasətçi Heydər Əliyevin vəfatı təkcə Azərbaycan və Qafqaz üçün deyil, bütün dünya birliyi; üçün də əvəzsiz itkidir. Öz həyatı və misilsiz çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın bugünkü və gələcək tərəqqisinə yol açan Heydər Əliyevin nurlu siması və adı qədirbilən nəsillərin xatirəsində həmişəlik qalacaq və tarixdə ən fəxri yeri tutacaqdır. Öz qonşuları azərbaycanlıların bütün dərd-qəmini həmişə ürəkağrısı ilə qarşılayan dağıstanlılar bu ağır itkinin kədərinə şərikdirlər.

***Xizri ŞIXSƏİDOV,***

***Dağıstan hökumətinin sədri.***

* * *

Biz, həqiqətən, Böyük İnsanı, Qoca Qafqazın məğrur oğlunu itirdik Heydər Əlirza oğlu azərbaycanlıların, qafqazlıların və bütün xoşməramlı insanların xatirəsində şərəf, vətənpərvərlik, öz Vətəninə və xalqına məhəbbət rəmzi kimi qalacaqdır.

***Q. MAXAÇOV,***

***Rusiya Dövlət Dumasının deputatı.***

* * *

Heydər Əliyevin bütün həyat yolu xalqa fədakarcasına xidmətə parlaq nümunədir. Onun yüksək insani keyfiyyətləri, peşəkarlığı, ölkələrimizin əməkdaşlığının, dövlətlərimizin xalqlarının qarşılıqlı anlaşmasının dərinləşməsi sahəsində yorulmadan göstərdiyi fəaliyyət Rusiyada həmişə böyük rəğbət və minnətdarlıq hissləri doğururdu.

***Aleksandr TORŞİN,***

***RF Federal Məclisinin Federasiya Şurası sədrinin müavini.***

* * *

Azərbaycan xalqına üz vermiş əvəzsiz itki - bütün dünyada tanınmış görkəmli siyasi xadim Heydər Əliyevin həyatdan getməsi ilə əlaqədar şəxsən öz adımdan və sıralarında Rusiya və xarici ölkələrin hüquqşünaslarını birləşdirən Beynəlxalq Hüquqşünaslar İttifaqı və Rusiya Hüquqşünaslar İttifaqı adından başsağlığı verirəm. Heydər Əliyev ilə Moskvada və Bakıda keçirdiyimiz görüşlərdən və söhbətlərdən aldığım unudulmaz təəssürat xatirəmdə həmişəlik qalacaqdır.

***A. TREBKOV,***

***Beynəlxalq Hüquqşünaslar İttifaqının sədri, Rusiya Hüquqşünaslar İttifaqının prezidenti.***

* * *

Mərhum Heydər Əliyevin bacarıqlı və geniş üfüqlü rəhbərliyi sayəsində indi Azərbaycan xarici siyasətdə sabitlik amili olaraq çıxış edən, iqtisadi inkişafını sürətlə davam etdirən, beynəlxalq birlikdəki nüfuzlu mövqeyini getdikcə möhkəmlətməkdə olan ölkəyə çevrilmişdir. Ölkənizdəki ictimai rifah və əmin-amanlığın memarı olan hörmətli Heydər Əliyevi itirməyimiz Türkiyə cəmiyyəti üçün də dərin kədər olmuşdur.

Ölkələrimiz arasında mövcud olan qarşılıqlı sevgi, hörmət və qardaşlığa söykənən münasibətlərimiz, əsasən, mərhum Heydər Əliyevin əsəri kimi xatırlanacaqdır.

***Əbdülqədir AKSU,***

***Türkiyə Respublikasının daxili işlər naziri.***

* * *

Əlbəttə, Heydər Əliyev bütün dünyanın yaddaşında yeni müstəqillik qazanmış Azərbaycan Respublikasının vətəndaş müharibəsindən və parçalanmadan xilas etmiş, neft sektoruna xarici sərmayə qoyuluşu üçün Azərbaycanın qapılarını açmış və beləliklə, öz ölkəsinin davamlı sosial-iqtisadi inkişafı üçün əlverişli şərait yaratmış adam kimi qalacaqdır.

Heydər Əliyevin sabit, iqtisadi cəhətdən sağlam, sosial cəhətdən ədalətli və siyasi cəhətdən plüralist cəmiyyət qurmaq siyasətinin davamı onun üçün ən böyük abidədir.

***Antonius U. De VRİS,***

***Avropa Komissiyasının Azərbaycan Respublikasındakı xüsusi elçisi.***

* * *

Böyük dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri, möhtərəm Heydər Əliyevin əbədiyyətə qovuşması xəbərini eşidəndə dərin sarsıntı və üzüntü keçirdim.

Doğma Azərbaycanımızın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi böyük Heydər Əliyevə bütün dünyada əbədi şöhrət qazandırmışdır.

***Dağıstan TURANLl,***

***Türkiyənin "DNTHoldinq " şirkətinin prezidenti.***

* * *

Mən mərhum Prezident Heydər Əliyevin qonağı kimi Azərbaycana rəsmi səfər etmişdim. Onun əzab çəkən və acınacaqlı vəziyyətdə yaşayan qaçqınları sevərək, onlara qayğı ilə xidmət etdiyini lap yaxından gördüm. Mən həm də Azərbaycanın yenidən qurulması üçün atılan addımları gördüm.

Heydər Əliyev əvvəl Sovet İttifaqı rəhbərliyində olarkən, sonra isə müstəqillik zamanı xalqına uzun müddət xidmət etmişdir. O, daim minnətdarlıqla xatırlanacaqdır.

***Faruq Əhməd Xan LEQARİ,***

***Pakistan İslam Respublikasının prezidenti.***

**Mənbə:** *Böyük insan haqqında. Bakı, "Azərbaycan", 2004, s. 46-74.*
*Heydər Əliyev dünyanın gözü ilə. Bakı, "Təhsil", 2003, s. 17-120.*